# “Vaxt tapan kimi qocalacam”

## Suğra Bağırzadə: “İnsan yaşayırsa, içində yaratmaq eşqi varsa, o, bütün arzularına çatmış sayılmaz”



**Onun artıq uşaq yaşlarından kino ilə əlaqəsi yaranıb. İkinci sinifdə oxuyanda sadəcə olaraq dublyaj üçün bu sahəyə gələn balaca qızcığaz üçün sonradan kinostudiya doğma bir ocağa çevrilib. Kinonu hər bir işdən çox sevən müsahibimiz əməkdar artist Suğra Bağırzadədir. Onun güllərlə işləmək həvəsi kimi başlanan xobbisi tədricən daha bir peşəyə keçib. S.Bağırzadə həm də florist-rəssamdır. Rəssamlar İttifaqının və Ümumdünya Floristlər Şurasının üzvü olan Suğra xanımla kinostudiyada görüşdük. 68 yaşı olmasına baxmayaq, çox gənc görünən aktrisa bildirdi ki, rejissorlar ona yaşına uyğun rol seçib verə bilmirlər. Aktrisa ilə gördüyü işlər, kino sahəsindəki vəziyyət, problemlər və s. mövzularda söhbət apardıq.**

**- Yay aylarıdır, istirahətə vaxt ayıra bilirsiz, yoxsa iş başındasınız?**

- 14 günlük Naftalana getmişdim, həm müalicə qəbul etdim, həm də istirahət oldu. Qızım, nəvələrim bağdadır. Mən də tez-tez bağa getməyə çalışıram. Amma indi hamı bağdadır deyə, evdə sakitlikdi, bu isə mənim üçün əsərlərim üzərində işləməyə yaxşı fürsət deməkdir. Çəkilişlər də yoxdur. 5-6 yeni əsər yaratmışam və onların üzərində işləyirəm. Ötən il bir sərgim oldu. 2017-ci ildə 70 illik yubileyim ərəfəsində sərgimin olmasını istəyirəm. Mənim yaratdığım əsərlərin hazır olması üçün azı iki il vaxt tələb olunur. Ona görə indi əsərlərimə daha çox diqqət ayırmağa çalışıram.

**- Sizin yaratdıqlarınız rəssamlıqla bağlıdır?**

- Rəssamlığın bir növü olan tətbiqi incəsənətdir. Mən Rəssamlar İttifaqının və eyni zamanda Ümumdünya Floristlər Şurasının üzvüyəm. Əsərlərim həm də güllərlə bağlı olduğu üçün florist-rəssam işi adlanır. Yalnız flora ilə bağlı əsərlər işləyirəm. Burada hər bir şey təbiidir, sintetik heç nədən istifadə olunmur. Bu işlərin dünyada analoqu yoxdur. 2003-cü ildə Ümumdünya Floristlər Şurası tərəfindən mənə sertifikat verildi. Orada yazılıb ki, “Floristika industriyasında yeni professional fənd yaratdığına görə” təltif olunur.

**- Bunlar satılır, yoxsa özünüz üçün saxlayırsınız?**

- Təbii ki, bu əsərlər bir gözəllikdir və əldə etmək istəyənlər çox olur. İnternet saytım var və orada əsərlərim yerləşdirilib. Müraciət edib alanlar var.

**- Bəs satmağa əliniz gəlməyənlər varmı?**

- Yox, elə deməzdim. Sadəcə olaraq elə əsərlər var ki, onları özüm, qızlarım üçün hazırlayıram. Yaxud kiməsə xüsusi olaraq hədiyyə hazırlayan zaman satmıram.

**- Bu əsərləri yaratmaq böyük səbr tələb edir. Yəqin ki, siz də çox səbirlisiniz...**



- Mən çox səbirliyəm. Amma səbrimin bitdiyi bir məqam da olur, o zaman vulkana dönürəm.

**- Cavan qalmağınızın sirri nədir? Səbirli olmağın burda rolu varmı?**

- İşgüzar olmalı və insan özünə diqqət etməlidir. Qidalanma rejimini daim diqqətdə saxlamalıdır. Ac qala bilirmi? Məsələn, mən Ramazan ayında oruc tutdum. Buna hövsələm çatır, həvəsim var. Deməli mən hələ dərrakəsini itirmiş insan deyiləm. İnsanlarla ünsiyyət qururam, deyib-gülməyə həvəsim var. Bu, normal bir insanın həyatıdır. Ramazanda insan bir növ özünü yoxlayır. Səbir, tərbiyə və işləmək bir vəhdət şəklində olmalıdır.

**- Arzuladıqlarınıza nail olmusunuzmu?**

- Yox, məncə insan yaşayırsa, içində yaratmaq eşqi varsa, o heç vaxt bütün arzularına çatmış sayılmaz. Arzular tükənəndə həyat dayanır, məncə. Arzular insanı irəliyə doğru aparır.

**- Sizinlə görüşəndə söhbət zamanı dediniz ki, rejissorlar yaşınıza uyğun rol verməkdə çətinlik çəkirlər. Belə bir görünüşə sahib olduğunuz üçün sevinirsiniz?**

- (Gülür) Nəyi yaxşıdır? İşimə mane olur. 70 yaşında kök bir qadın olsaydım, qəşəng ana rollarını mənə verərdilər. Gənc qaldığım üçün isə nə yaşıma uyğun rol verə bilirlər, nə də gənc qadın obrazı.

**- Türk seriallarında isə yaşından cavan görünən aktrisalara böyük önəm verilir...**

- Bizdə o tendensiya yoxdur. Nərmənazik, incə bir xanım olanda artıq onu ana obrazı üçün uyğun görmürlər. Amma bütün dünya filmlərində incə, nərməmazik qadınları filmə çəkməyə üstünlük verirlər. Hətta kənd qadınlarını canlandıran aktrisalar belə, gözəl olurlar. Bədən quruluşu, yerişi, gözəlliyi hamısı qalır. Amma bizdə kənd qızı çəkəndə elə bir formaya salırlar ki, sanki kənd qızları bu cürdür. İndi XXI əsrdir və indinin kəndçisi XX əsrin kəndçisindən fərqlənir. Nədənsə indi bu cür tendensiya formalaşıb. Əvvəlki Azərbaycan filmlərində kənd qızları çox gözəldirlər, qəşəng, səliqəli geyimləri, saç düzümləri var. İndi kənd qızı çəkirlərsə, deməli, qadın gözəlliyi üçün əsas kriteriyalardan uzaq biri olmalıdır. Elə filmlərdə təbii ki, mənə rol olmayacaq.

**- Seriallarda sizi görmürük...**

- “13 nömrəli polis bölməsi” adlı bir serialda ana rolunu canlandırmışam. Amma hələ ki efirlərə çıxmayıb.

**- Deyəsən, ümumiyyətlə seriallara çəkilmək həvəskarı deyilsiniz.**

- Hə. Çünki insanın vaxtını çox aparır. Serial bəzən yüzlərlə seriyaya qədər uzanır. Kino isə konkret işdir, nə vaxt başlayıb, nə vaxt bitəcəyi məlumdur. Həm də kinodan əlavə mən rəssamlıq işimə də vaxt ayırmalıyam. Bununla bağlı xaricdə səfərlərdə çox oluram, sərgilərdə iştirak edirəm. Amma kinonu hər bir işdən çox sevirəm.

**- Kino sahəsində nələrin dəyişilməsinə ehtiyac var?**

- Kinoların sponsor hesabına çəkilməsi tendensiyasının olmamasını istəyirəm. Burada hər bir iş sponsordan asılı olur. Pulu versə çəkilir, verməyəndə yarımçıq qalır, yaxud nə qədər vaxt keçdikdən sonra çəkilişlər aparılır. Bəzən çəkilişlər pul olmadığı üçün dayanır, bir ildən sonra davam edir. Bu zaman isə aktyorlar həvəsdən düşür. Əvvəl filmlər davamlı olaraq çəkilirdi. Çəkilişlər yarım il davam edirdisə, biz artıq başqa cür həyat sürürdük, çox maraqlı olurdu.

**- Kino sahəsindəki durğunluğa filmlərin sponsordan asılı olması da səbəbdirmi?**

- Kino sahəsində durğunluq olduğunu demək düzgün deyil. Çox filmlər çəkilir, amma nədənsə az göstərilir. Filmləri təqdim etmə qaydası yaxşı deyil. Mən “Ulduz” filminə çəkiləndə 8-ci sinfi bitirmişdim. Bütün Azərbaycan filmin çəkilişlərinin getdiyini, orada kimlərin rol alacağını bilirdi. Qəzetlər filmlə bağlı yazırdılar, sınaq çəkilişləri haqda belə məlumat verirdilər. Şəhərdə reklamlar yerləşdirilirdi, 6 ay film çəkilirdisə, o reklam lövhələrində filmdən olan şəkillər vurulurdu. Hamı filmin hazır olmasını gözləyirdi. Bütün kinoteatrlarda premyera olurdu və iki gün öncə biletlər satılıb qurtarırdı. Film o qədər gözəl təqdim edilirdi ki, insanlar filmin təqdimatını bayram kimi qeyd edirdi. Amma indi o ənənə yoxdur.

**- Son vaxtlar ölkəmizdə türk filmlərinin qala gecələri olur. Əhali daha çox o filmlərə maraq göstərir. Siz həmin filmlərə baxmısınız?**

- Demək olar ki, yox. Mən filmə və televiziyaya az baxıram. O mənada ki, filmləri seçib baxıram. O qədər boş vaxtım yoxdur ki, qarşıma çıxan bütün filmləri izləyim. Heç serialları da izləməyə vaxtım olmur. Bizim seriallara da baxa bilmirəm. Bəzən peşəkar sənət dostlarımın oynadıqları hissələr olanda öncədən öyrənib həmin hissəyə baxıram. Çünki aktyor işi məni maraqlandırır. Amma neçə yüz seriyaya baxa bilmirəm. Bugünlərdə Rusiya kanalından bir serial başlamışdı. Birinci seriyadan serialın nə ilə bitəcəyini, aktyor işinin nə olduğunu təxmin etdim. Televizoru söndürdüm. Nə isə öyrənə biləcəyim filmlərə baxmağa çalışıram. Ən azı, film maraqlı olmalıdır.

**- Azərbaycanda son vaxtlar maraqlı film çəkilirmi?**

- Yəqin ki, çəkilir. Hamının maraq dairəsi müxtəlifdir. Çünki mənə maraqlı olan başqası üçün heç də elə olmaya bilər. Yaxud da əksinə. Film seçimi də hər kəsin səviyyəsindən asılıdır. Mənim filmlərə qarşı tələb səviyyəm çox yuxarıdadır. Çünki bu sahədə formalaşmışam, ikinci sinifdən kinostudiyada böyümüşəm. Dublyajda iştirak edirdim, 8-ci sinifdən isə filmlərə çəkilmişəm. Kinostudiyada müxtəlif şöbələrdə çalışmışam. Mən kinonu yaşamışam. Ona görə də mənim kinoya baxışım başqadı. Hər şeyə baxmıram, hər şeydən həzz almıram. Mənə lazım olmayan bir şeyə niyə vaxt sərf etməliyəm?

**- Bəs teatrda çalışmaq istəyərdinizmi?**

- Teatrın quruluşu başqa cür olsa, istəyərdim. Hafiz Fətullayev “Sənsiz” tamaşasını qoymuşdu. Amma biz bu tamaşanı Azdrama-nın səhnəsində iki dəfə oynadıq. Mən orada Maral obrazını canlandırırdım. Çox xoşuma gəldi, çünki mən canlı olaraq səhnədə tamaşaçılarla təmasda oldum. Onlar hər bir şeyə fikir verirdilər və səhnədə bunu hiss edirdim. Mən yavaş danışıram və qışqıra-qışqıra danışmağı sevmirəm. Bizim aktyorlar isə nədənsə, tamaşada qışqıra-qışqıra danışırlar. Dünyanın bir çox ölkələrində, Parisdə, Sankt Peterburqda teatrlarda olmuşam. Xüsusi tamaşalar olanda hətta həmin ökəyə tamaşaya baxmaq üçün də gedirəm. Xarici aktyorlar Bakıda tamaşa oynayanda da gedirəm. Heç birində aktyorların qışqırıqla danışdıqlarını görmürəm. Bu danışıq forması bircə bizdə var. Teatrda axırıncı sırada oturan tamaşaçı belə, aktyor danışanda gözlərini yumsa da, səhnədə nə baş verdiyini hiss etməlidir. Danışığın, ayaqlarının səsi, zaldakı sakitlik onu hiss etdirməlidir. Burada aktyoru qınamaq olmaz. Çünki aktyordan bunu rejissor tələb edir. Kinoda bəzən rejissor hansısa hissənin necə olacağını deyir. Aktyor isə həmin hissə üçün düşündüyü formanı da rejissora təqdim edir. Peşəkar rejissor sonra kadrları müqayisə edəndə yaxşı olanı seçir. Aktyorun ideyası gözəl olsa, həmin kadrı saxlayır. Amma teatrda başqa cürdür.

**- Yaşınızı gizlətmirsiz. Amma adətən gənc görünən bir çox xanımlar yaşlarını gizlətməyə çalışırlar...**



- Niyə gizlədim ki? Yaşı gizlətmək ağılsızlıqdır. Bununla nə əldə edəcəm axı? Heç nə. Amma yaşımızı deməklə artıq bizim kim olduğumuzu, hansı səviyyədə olduğumuzu başa düşürlər. Qadının gözəlliyinin yaşı yoxdur. Xanımlara yaşına görə gözəl qız, gözəl qadın, gözəl ana, gözəl nənə deyilir. Məndən soruşanda niyə qocalmırsız, cavab verirəm ki, vaxt tapan kimi qocalacam. İşim çoxdur. Boş şeylərə vaxt ayırıb, ah-uf edirsənsə, təbii ki, tez qocalacaqsan. İnsan məşğul olsa, beynini yoran fikirlər ondan uzaq durar.

**Xəyalə Rəis**